**Sevda Abasqulu qızı Xələfova**
*Bakı Dövlət Universiteti, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*
sevdakhalafova@bsu.edu.az

# KİTABXANA-İNFORMASİYA RESURSLARI HAQQINDA ANALİTİK KONSEPSİYALAR

*Məqalə kitabxanaşünaslığın nəzəriyyəsində mühüm yer tutan kitabxana-informasiya resursları anlayışına dair elmi fikirlərin təkamülunun daha yüksək mərhələsi olan paradiqmaların müqayisəli təhlilinə həsr olunmuşdur. İnformasiya cəmiyyətinin super magistrallarından biri olan universal kitabxanaların informasiya resursları daim zənginləşmiş bu resurslar müxtəlif terminlərlə ifadə olunmuşdur. Baş verən informasiya inqilabı kitabxanaşünaslığın da anlayış aparatından yan keçməmişdir. Məqalədə kitabxana-informasiya resursları anlayışına dair nəzəri konsepsiyalar analitik şəkildə təhlil edilir, terminlər müasir kitabxanaşünaslığın elmi arsenalının genişləndirməsi faktı kimi tutarlı dəlillərlə əsaslandırırılır.*

***Açar sözlər:*** kitabxana, informasiya, resurs, kitabxana-informasiya resursu, sənəd, mənbə, paradiqma

**Giriş.** Müasir dünyada texnoloji inqilabın və sosial inkişafın mədəni paradiqmalarının təsiri altında baş verən qlobal dəyişikliklər, cəmiyyətin ənənəvi sosial strukturlarının funksional mövqeyinə həll edici təsir göstərir. Onlar arasında əsas yeri kitabxanalar tutur. Dünyada kitabxanaların sosial rolunun elmi əsaslandırılması son dərəcə vacib bir vəzifədir. Dünya mədəniyyətinin taleyi, cəmiyyətin humanist təməllərinin qorunub saxlanması və davamlı inkişafı ondan asılıdır.

İctimai əhəmiyyətli informasiyanın toplanması, saxlanması, istehsalı, yayılması və istifadəsi proseslərində iştirak edən kitabxanalar, ilk növbədə, cəmiyyətin sonrakı inkişafına təsir göstərən informasiyanın strateji milli mənbəyə çevrilməsinə obyektiv töhfə verir. İntelektual informasiya məhsuluna pulsuz çıxış təmin edən kitabxanalar postsənaye cəmiyyətinin əsas hədəflərindən biri olan informasiyaya əlçatarlığın əsas təminedicisidir. Bundan əlavə, geniş oxucu kütləsinin şəbəkəyə əsaslanan informasiya mənbələrindən kommunikativ rejimdə istifadəsini təmin edən kitabxanalar cəmiyyətin müxtəlif sahələri arasında "informasiya şüurunun" tədricən formalaşmasına kömək edir.

**Əsas hissə.** Kitabxanalar bu gün mədəniyyətin inkişafına və əlaqələrin humanistləşməsinə öz töhfəsini verdiyi üçün insanların tarixi yaddaşının qorunmasında, sənədli informasiyanın yayılmasında xüsusi sosial əhəmiyyət kəsb edir.

"Sənəd" sözü latın dilində "documentum" sözündən götürülmüşdür. (12, s. 177) Bundan əlavə bu termin "docere" felinə əsaslanır və "öyrətmək, tədris etmək" deməkdir. Sözün kökü hind-avropa dillərinə dayanır və əllərin hərəkəti və ya jestlər vasitəsilə nəyisə başa salmaq mənasını daşıyır. "Documentum"



sözü Yuli Sezar və Çiçeron tərəfindən də işlədilmişdir. Sonralar "sənəd" sözü hüquqi status aldı və "yazılı dəlil" kimi istifadə edilməyə başladı.

XVIII əsrdən etibarən rus dilli ədəbiyyatda "sənəd" sözünə rast gəlinməyə başlamışdır. Bu dövrdən başlayaraq rus leksikasında "sənəd" anlayışının mənası araşdırılmağa başlanmışdır. 1789-1894-cü illər aralığında Rusiya Akademiyası tərəfindən hazırlanmış 40 min xarici sözdən ibarət olan 6 cildlik lüğətdə və 1847-ci ildə Rusiya İmperator Akademiyası tərəfindən çap olunmuş kilsə-slavyan və rus dillərində olan sözlərdən ibarət olan lüğətdə "sənəd nəyinsə təsdiqi və ya nəyəsə şahidlik məqsədilə tərtib edilən elmi akt və ya iş sənədi" kimi təqdim edilmişdir. Həmin vaxtdan etibarən Rusiyada kargüzarlıq işlərində və yas hüquqi sahədə "sənəd" anlayışı iş vərəqi kimi və ya şəxsiyyəti təsdiq edən sənəd kimi təqdim edilir. (14, s 557) XIX əsrdən başlayaraq "sənəd" sözü idarəetmədə istifadə edilməyə başlamışdır. Bu vaxtdan etibarən sözə sinonim olaraq "iş sənədi", "akt" kimi terminlər işlədilir. XX əsrdən isə "iş sənədi" termini öz yerini "rəsmi sənəd" terminінə verir.

Dosent Əli Rüstəmov öz tədqiqatlarında qeyd edir ki: "Sənəd" anlayışı, kitabşünas-lığın, kitabxanaşünaslığın, biblioqrafiyaşünaslığın, informatikanın, sənədşünaslığın və bir neçə digər elm sahəsinin mərkəzi, fundamental anlayışıdır. Bu anlayış real mövcud olan predmetlərin əlamətlərini ifadə edir. Onlar təcrübi fəaliyyətin əsas obyektləri olub, sənəd informasiyalarının hazırlanması, toplanması, analitik-sintetik emalı, axtarışı, yayılması və istifadəsi proseslərinin həyata keçirilməsinə xidmət edir." (2, s. 70) Nikoloy Semyonoviç Larkov sənədə belə tərif verməyə çalışır: "Sosial kommunikasiyada istifadə edilmiş informasiyanın maddiləşmiş formasına sənəd deyilir." (9, s. 42) Bununla da Larkov "kitab" və "sənəd" anlayışı arasında yaranmış problemi həll etməyə çalışmışdır. N.S. Larkova görə "Kitab əks etdirdiyi informasiyaya görə tarixi və məntiqi baxımdan, eyni zamanda sosial əlamətinə və əsas funksiyasına, maddi daşıyıcının xarakterinə görə bir növ sənəddir. Təbii ki kitabın özünəxas xüsusiyyətləri vardır. (9, s. 26) Q.A. Dvoyenosova "Sənəd fenomeni" başlıqlı məqaləsində kitab və sənədin sosial anlayış kimi fərqlərini göstərmişdir. Alim kitabla sənədin fərqini müəyyənləşdirərkən yazır: "Kitab və sənəd tamamilə fərqli informasiya obyektidir, onların ikisinin də fərqli məqsədləri var, fərqli sosial tapşırıqlar üçün müəyyənləşiblər və yaradılması, saxlanma və istifadə texnologiyasına görə də biri birindən fərqlənirlər... Eləcə də "sənədin hər hansı bir parçası baş vermiş hadisəyə hüquqi və rəsmi sübutdursa, "şahiddir"sə, hər hansı bir əlyazma həmin hadisə və faktlar haqqında yalnız fikri əks etdirə bilər... "sənəd birinci, kitab isə ikincidir. Sənəd hər hansı bir hadisə haqqında dəqiq məlumatı əks etdirdiyinə görə birinci, kitab isə həmin hadisə ilə əlaqədar müəlliflərin yanaşmasını əks etdirdiyinə ikinci hesab olunur." (5, s. 2)

Qalina Aleksandrovnaya görə sənədin yaradılmasında məqsəd hər hansı bir fakt, hadisə, fəaliyyət ilə bağlı informasiyanı saxlamaqdır. Kitab isə həmin faktlar və hadisələr nəticəsində yaranmış informasiyanı toplamaq, saxlamaq və yaymaq məqsədi daşıyır. Eyni zamanda kitab əldə olunmuş informasiyaya dair

hiss və münasibətləri də əks etdirir. Q.A. Dvoyenosovanın fenomenoloji yanaşmasına görə sənəd həmişə ilkindir, ona görə də heç vaxt kitabla eyniləşdirilə bilməz. Sənədin ilkinliyi qədim mədəniyyəti bu günkü günə qədər dəyişmədən, olduğu kimi çatdırılması ilə müəyyənləşir. (6, s. 91) Ona görə də alim kitabxanaçı-sənədşünasların kitabın sənədin bir növü kimi təqdim etmək nəzəriyyələrinə qarşı çıxır.

Mixail Vasilyeviç Larin 50 illik elmi fəaliyyətdən sonra belə qənaətə gəlmişdir ki, sənədşünaslıqla kitabxanaşünaslığı bir yerdə tədqiq etmək olmaz. O sənədin bütün əlamətlərini və funksiyalarını müəyyənləşdirdikdən sonra "sənəd qeydə alınmış informasiya haqqında universal anlayışdır" fikrinə qarşı çıxırdı. (10, s. 139)

XX əsrin 30-cu illərindən başlayaraq "sənəd" anlayışına dair yeni nəzəriyyələr formalaşmağa başladı. Bu illərdə ABŞ-da, Böyük Britaniyada, Almaniyada, Fransada yeni sənədşünaslıq mərkəzləri, peşəkar cəmiyyətlər və sənədşünaslıqla bağlı dövrü nəşrlər meydana gəldi. Sənədləşmə avtoritet sosial institut statusunu almağa başladı. 1938-ci ildə Beynəlxalq Sənədşünaslıq Federasiyası nəznində Beynəlxalq Biblioqrafiya İnstitutu yaradıldı.. Federasiya beynəlxalq səviyyədə sənədşünaslıq fəaliyyətini əlaqələndirir, sənədşünas kadrların hazırlığını təşkil edir və Universal Onluq Təsnifatın formalaşmasına rəhbərlik edir. 1988-ci ildə Federasiya adını dəyişərək Sənədşünaslıq və İnformasiya üzrə Beynəlxalq Federasiya adlanmağa başladı.

Federasiyanın fəaliyyətində rol oynamış alimlərdən biri Pol Otle hesab olunur. Pol Otle elmi fəaliyyəti boyunca "sənəd" anlayışının mahiyyətini müəyyənləşdirməyə çalışmışdır. Ona görə sənəd "fakt və ideyaların mətn və şəkil halında təsnifləşdirilmiş və plana uyğun sistemləşdirilmiş formada maddi daşıyıcıda toplanmasına deyilir" (11, s. 190) Pol Otlenin nəzəriyyəsinə görə kitabla sənədi eyniləşdirmək olarmı? Bu suala cavab vermək üçün başqa alimlərin fəaliyyətinə diqqət etmək lazımdır. Kitabşünas alim N.M. Kufayevə istinad edərsək, "Kitab fikir və düşüncənin maddiləşmiş halıdır. Yəni söz və fikrə hər hansı bir fiziki dəyişiklik edərsək o xarakterinə və görünüşünə görə kitaba çevrilir. (7, s. 61) Görkəmli rus kitabşünas-alim N.M. Somova görə isə "kitab hər hansı bir düşüncənin qrafik olaraq sabit olduğu oxunaqlı və asanlıqla daşınıla bilən maddi daşıyıcıdır". (13,s. 9) Hər iki alimin kitaba yanaşmasını nəzərə alarsaq, o zaman belə məlum olur ki, kitab sosial əhəmiyyətli fikirlərin nüsxələnməsi və yayılması vasitəsi olub, insanların oxuya biləcəkləri işarələri əks etdirən uzunmüddətli portativ daşıyıcıdır. Beləliklə biz sənədlə kitabı eyniləşdirə bilərikmi? 1930-cu ildə SSRİ Elmlər Akademiyasının nəznində kitabı, sənədi və yazılı materialları araşdıran institut fəaliyyət göstərirdi. Həmin institutun əsas vəzifəsi kitabın, sənədin və digər yazılı materialların əlaqəli şəkildə inkişafını öyrənməkdən ibarət idi. Digər tərəfdən isə sovet alimləri sənədlə kitabın əlaqələrinə skeptik yanaşırdılar. Hətta sənədin öyrənilməsi işini əhəmiyyətsiz hesab edirdilər.

XX əsrin başlanğıcında sənədin idarəetmədə tətbiqi ilə yenidən sənədlə kitabın əlaqəli şəkildə öyrənilməsi işinə başlandı. Bu dəfə əvvəlkindən fərqli



olaraq tədqiqatlar daha geniş, hətta "Kitabxanaların, muzeylərin və arxivlərin sintezi" elmi-inteqral formada aparılmağa başladı.

Dünya kitabxanaşünaslıq elminin klassiki Şiali Ranqanatan kitabları və məqalələri sənəd kimi təqdim edirdi. Bu onu kitabların və məqalələrin məlumatları uzun müddətə saxlaya bilməsi ilə əlaqələndirirdi. Ranqatanın əksinə olaraq Y.N. Stolyarov sənədə belə konkret tərif verməyin əleyhinə idi. Ona görə sənədə ümumi təsvir vermək lazımdır. Sənəd lazım olan informasiyanı əldə etmək üçün obyektdir. Ona görə də sənədə nisbi yanaşmaq lazımdır. (22, s. 67)

Beləliklə sənəd anlayışı haqqında irəli sürülən nəzəriyyələr sənədi kitabxana-informasiya mənbələrinin tərkibi kimi öyrənməyə imkan verir və müasir ədəbiyyatda informasiya mənbələri "informasiya resursları" şəklində verilir.

Resurs sözü "Resource" sözündən götürülüb "mənbə, ehtiyat" mənasını daşıyır və ehtiyac olduqda istifadə edilən ehtiyatlara deyilir.

Müasir dövrdə alimlər informasiya resurslarını strateji resurslar kimi qəbul edirlər. İstər nəzəriyyə ilə məşğul olan alimlər olsun, istərsə də təcrübə ilə məşğul olan alimlər olsun, hər ikisinə görə iqtisadiyyatın, elmin, təhsilin və mədəniyyətin inkişafı məhz informasiya resurslarından asılıdır. İnformasiya resursları anlayışının mahiyyətinə dair ilk cəhdlər XX əsrin 90-cı illərində olmuşdur. Belə ki, həmin illərdə alimlər informasiyaya resurs kimi yanaşmağı təklif edirdilər. Bu istiqamətdə aparılan araşdırmalar yekunda informasiya resursu anlayışının aydınlaşdırılması tələbini yaratdı. Bizim dövrümüzdə "informasiya resursu" anlayışı tez-tez istifadə edilir. Buna baxmayaraq onun konkret şərhi hələ müəyyənləşməmişdir.

İnformasiya resursu iki mənada işlədilir: dar və geniş. Dar mənada informasiya resursu dedikdə şəbəkə informasiya resursları nəzərdə tutulur. Bu zaman kompüter vasitəsilə əldə edilən resurslar başa düşülür. Geniş mənada informasiya resursu dedikdə, ənənəvi və elektron formada maddiləşmiş informasiya nəzərdə tutulur. Bu zaman informasiyanın saxlanması, qorunması və ötürülməsi mümkün olur. (3, s. 13)

"Biblioqrafın məlumat kitabı"nda informasiya resursları saxlana və daşına bilən formada maddiləşmiş informasiya ehtiyatı kimi təqdim edilir. (14, s.557)

Y.N. Stolyarova görə informasiya resursu dedikdə sənəd və onun massivləri nəzərdə tutulur. Ona görə də o, "informasiya resursları" anlayışının yerinə, "sənəd resursları" anlayışını istifadə etməyi təklif edirdi. (15, s. 125) Elmi-praktiki ədəbiyyatda da "informasiya resursları", "sənəd resursları" və "sənəd-informasiya resursları" anlayışları fərqləndirilmədən istifadə edilir. İlk baxışda bu anlayışların məzmununa görə bir-birindən fərqləndiyi düşünülür. Belə ki, "informasiya resursları" anlayışı ancaq informasiyanı öyrənir, sənəd resursları ancaq sənədləri, sənəd-informasiya resursları isə həm sənədləri, həm də informasiyanı öyrənir.

Ancaq vəziyyət göründüyündən daha qəlizdir. Səbəb isə "sənəd", "informasiya", "informasiya resursları", "sənəd resursları" anlayışlarının nəzəri cəhətdən öyrənilməməsidir. İnformasiya resurslarına belə tərif verilir: "etibarlı

mənbədən səmərəli istifadə üçün hazırlanmış sənədlərin məcmusu", "sənəd resursları" anlayışı isə "ayrı-ayrı sənədlərin informasiya sistemlərində təqdimatı növü" kimi izah edilir. Başqa sözlə sənəd resursları informasiya resurslarının xüsusi halı hesab olunur.

1995-ci ildə qəbul olunmuş qanuna görə informasiya resursu dedikdə "sənədlər və onların massivləri, eləcə də informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və onların massivləri nəzərdə tutulur." Burada bir məsələyə diqqət etmək lazımdır. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi" haqqında Azərbaycan Respublikasının qanununa (1) əsasən "informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləri" dedikdə informasiya ehtiyatları nəzərdə tutulur. Buradan belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasının qanunvericiliyində informasiya resursu informasiya ehtiyatı kimi təqdim edilmişdir.

Verilən təriflərə görə informasiya resursları özündə sənədləri və onların massivlərini əsk etdirir. Buradan belə nəticə hasil olur, görəsən həqiqətən "sənəd resursları" elə "informasiya resursları" dır? Fikirlərimizi normativ sənədlərə əsasən izah etsək daha məqsəduyğun olar. Rusiya Fedcrasiyasının "İnformasiya, informasiyalaşdırma və informasiyanın" mühafizəsi haqqında qanununda sənəd "informasiyanın maddi daşıyıcıda qeydə alınmış formasına" deyilir. (17) Qanunun yeni nəşrində (18), eləcə də Donetsk Muxtar Respublikasının "İnformasiya və informasiya texnologiyaları" haqqında qanununda "sənəd" sözü "sənədləşdirilmiş informasiya" sözü ilə əvəz olundu. (20) Ukraynanın "İnformasiya haqqında" qanununa görə sənəd maddi daşıyıcı kimi özündə informasiyanı ehtiva edir. Burada sənədin funksiyaları da müəyyənləşdirilir. Belə ki, qanuna görə sənədin əsas funksiyaları informasiyanın saxlanması və ötürülməsindən ibarətdir. (21)

QOST R 7.0.8- 2013 standartında sənəd "informasiyanın rekvizitlərlə maddi daşıyıcıda qeydə alınması və identikləşdirməyə imkan verən vasitə" kimi təqdim edilir. (4)

Normativ sənədlərdə informasiya resursları məsələsinə də toxunulmuşdur. Ukraynanın "İnformasiyalaşdırma haqqında milli proqram" adlı qanununda informasiya resursları "informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləri" kimi xarakterizə edilir. (20) Rusiya Federasiyasının "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanununun köhnə versiyasında bu anlayışa yer ayrılsa da, yeni nəşrində nədənsə bu anlayış öz əksini tapmamışdır.

"Sənəd", "informasiya" və "informasiya resursları" anlayışları ətrafında aparılan tədqiqatlardan belə qənaətə gəlmək olar ki, sənəd qeydə alınmış informasiyadır, amma informasiya sənəd olmadan da mövcud ola bilər. O zaman belə deyə bilərik ki, sənəd resursları informasiya resurslarının bir hissəsidir.



Bir qism tədqiqatçılar informasiya resurslarına verilənlər bazasında və məlumatlar bazasında toplanan informasiyanı, eləcə də informasiya sistemlərini və texnologiyalarını aid edir. Beynəlxalq qanunvericiliyə görə informasiya texnologiyaları informasiyanın axtarışı, toplanması, saxlanması, emalı, təqdimatı və yayılması metodları və prosesləri, bu metod və proseslərin tətbiqi vasitələridir. İnformasiya sistemləri isə verilənlər bazasında toplanan məlumatların və onu təmin edən informasiya texnologiyaları və texniki vasitələrin məcmusudur. Verilənlər bazası özü isə məlumatın informasiya texnologiyaları vasitəsilə işlənməsi nəticəsində yaranır və böyük həcmli verilənlərin sistemləşdirilməsi və saxlanması işini həyata keçirir. Bundan əlavə verilənlər bazası böyük həcmli informasiyanın istifadəçilərə çatdırılması məqsədilə yaradılan toplu da hesab edilir. Verilənlər bazası informasiya resurslarının tərkib hissəsi olduğuna görə, informasiya texnologiyaları və informasiya sistemlərini informasiya resurslarının komponenti kimi qəbul etmək olar.

Beləliklə informasiya resurslarını sənədlər və onların massivlərinin, eləcə də informasiya texnologiyalarını və sistemlərinin və insan resurslarının şəxsi məlumatlarının məcmusu kimi qəbul edə bilərik. İnformasiya resursları birlikdə informasiya potensialını yaradır. Bununla yanaşı "İnformasiya potensialı" anlayışı özündə müəyyən məqsədə çatmaq üçün metodları, üsulları, vasitələri və mexanizmləri ehtiva edir. (8, s.29) Məhz informasiya potensialının tərkibində sənəd resurlarının rolu biliyin, bəşəri təcrübənin, insani bacarıqların, yeniliklərin və hər hansısa bir millətin intelektual göstəricilərinin inkişafına verdiyi dəstək ilə müəyyənləşir.

**Nəticə və elmi yenilik.** Kitabxana-informasiya resursları haqqında analitik konsepsiyaların öyrənilməsi və onunla bağlı nəzəriyyələrin yaradılması müasir kitabxanaların fəaliyyətinin təşkili baxımdan önəmli məsələlərdən biridir. Aparılan tədqiqat zamanı belə nəticəyə gəlmək olar ki:

1. Sənəd anlayışı qədim Romada meydana gəlmişdir;
2. XVIII əsrdən etibarən rus dilli ədəbiyyatda "sənəd" sözünə rast gəlinməyə başlamışdır.
3. XX əsrdə sənəd idarəetmədə tətbiq edilməyə başladıqdan sonra kitabla əlaqəli şəkildə öyrənilmişdir.
4. Bu zaman məlum olur ki, sənəd hər hansı bir hadisə haqqında dəqiq məlumatı əks etdirdiyinə görə birinci, kitab isə həmin hadisə ilə əlaqədar müəlliflərin yanaşmasını əks etdirdiyinə ikincidir.
5. Kitab özünəməsus xüsusiyyətlərə malik olan sənəddir.
6. XX əsrin 30-cu illərindən başlayaraq ABŞ-da, Böyük Britaniyada, Almaniyada, Fransada yeni sənədşünaslıq mərkəzləri, peşəkar cəmiyyətlər və sənədşünaslıqla bağlı dövrü nəşrlərin meydana gəlməsi ilə yeni nəzəriyyələr yarandı.
7. Sənəd anlayışı haqqında irəli sürülən nəzəriyyələrə görə sənəd kitabxana-informasiya mənbələrinin tərkibidir.

8. “Sənəd”, “informasiya”, “informasiya resursları”, “sənəd resursları” anlayışları nəzəri cəhətdən öyrənilməmişdir.
9. Normativ sənədlərdə “informasiya resursları” anlayışına xüsusi yer verilmişdir.

Nəhayət onu qeyd edə bilərik ki, sənəd resurları kitabxana-informasiya resurslarının nüvəsinə çevrilərək informasiya cəmiyyətinin yeni mərhələsinə keçid üçün dayaq rolunu oynayır. Amma tamlıqla kitabxana-informasiya resurslarını əvəz etmir, yalnız onun bir hissəsi kimi yaranır və formalaşır.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**


1. “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi” haqqında Azərbaycan Respublikasının qanunu, 1998-ci il // e-qanun.az
2. Rüstəmov Ə. Sənəd anlayışı, onun genezisi və mahiyyəti”// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.- 2008.№.2.- s.69-78
3. Антопольский, А.Б. Проблемы классификации и идентификации информа ционных ресурсов. // Научно техническая информация. Серия Организация и мето-дика информационной работы. - 1997. - №8. -С. 1-11.
4. ГОСТ Р 7.0.8-2013 СИБИД. Делопроизводство и архивное дело. Термины и определения. М.: Госстандарт России, 2013.
5. Двоеносова Г. А. Феномен документа // НТИ. – Сер. 1. – 2015. – № 6. – С. 1–8.
6. Двоеносова Г. А. Документ – имя собственное // Вестн. РГГУ. – Серия «Документалистика, Документоведение, Архивоведение». – 2014. – № 2. – С. 87–93.
7. Куфаев М. Н. Проблемы философии книги. Книга в процессе общения. – Москва, 2004., s. 61-62
8. Мащенко Н.Е. Информационный потенциал общества: механизмы формирования и развития: дис. … канд. экон. наук: 08.00.01. Донецк, 2012. 200 с.
9. Ларьков Н. С. Документоведение : учеб. 3-е изд. – Москва : Проспект, 2016. –416 с.
10. Ларин М. В. Актуальные проблемы современного документоведения // Вестн. РГГУ. –2014. – № 2., s. 139-140
11. Отле П. Библиотека, библиография, документация: избранные труды пионера информатики. – Москва, 2004..- 350 с.
12. *Словарь иностранных слов* / [Науч. *ред. А.* Г. *Спиркин* и др.]. - 7-е изд., перераб. - М. : Рус. яз., 1980. - 622 с
13. Сомов Н. М. Сущность книговедения. Библиологический очерк. – Москва, 1933.Толково-энциклопедический словарь. – Санкт-Петербург: Норинт, 2006.- 869 s.
14. Справочник библиографа [Текст]/ науч. ред. А.Н. Ванеев, В.А. Минкина.– 2 изд, перераб. и доп. СПб: Профессия, 2003.- 560с.
15. Столяров Ю.Н. Документальный ресурс: Учеб. пос. для студ. выс. учеб. зав. / Рецензент д-р пед. наук проф. Н.Н. Кушнаренко. – М.: "Издательство Либерея", 2001. – 152 с.
16. Федеральный закон РФ «Об информации, информатизации и защите информации» от 20 февраля 1995 г. № 24-ФЗ // Собрание законодательства Российской Федерации. 1995. № 8.//base.garant.ru
17. Федеральный закон РФ «Об информации, информационных технологиях и о защите информации» от “27.07.2006 № 149-ФЗ// base.garant.ru
18. Федеральный закон РФ «Об информации, информационных технологиях и о защите информации» от 27.07.2006 № 149-ФЗ.; Закон Донецкой Народной Республики «Об информации и информационных технологиях» // rg.ru
19. Закон Донецкой Народной Республики «Об информации и информационных технологиях» // dnrsovet.su
20. Закон Украины «Об информации» от 02.10.1992 № 2657-XII // Ведомости Верховной Рады Украины. 1992. № 48.
21. Закон Украины «О Национальной программе информатизации» от 04.02.1998 № 74/98-ВР // Ведомости Верховной Рады Украины. 1998. № 27-28.
22. Земсков А. И. Документоведение – было, есть и будет. (Обзор зарубежных публикаций) // Науч. и техн. б-ки. – 2006. – № 7. – С. 63–73.


**Севда Халафова**

**Аналитические концепции о библиотечно-информационных ресурсах**

**Резюме**

*Статья посвящена сравнительному анализу имеющий более высокую ступень парадигмы о эволюцию научных представлений о концепции библиотечно-информационных ресурсов которые занимает важное место в теории библиотечного дела. Информационные ресурсы универсальных библиотек как одной из магистралей информационного общества выражаются в различных терминах. Произошедшая информационная революция не опущено из понятийного аппарата библиотечного дела. В статье анализируется теоретические представления о концепции библиотеки и информационных ресурсов аналитическом форме, термины как фактом расширения научного арсенала современного библиотечного дело подтверждены последовательными свидетельствоми*

***Ключевые слова:*** библиотека, информация, ресурс, библиотечно-информацион-ный ресурс, документ, источник, парадігма

**Sevda Khalafova**

**Analytical concepts about library and information resources**

**Resume**

*The article is devoted to a comparative analysis of a higher level of paradigm about the evolution of scientific ideas about the concept of library and information resources, which occupies an important place in the theory of librarianship. Information resources of universal libraries as one of the highways of the information society are expressed in various terms. The information revolution that has taken place has not been omitted from the conceptual apparatus of librarianship. The article analyzes theoretical ideas about the concept of a library and information resources in analytical form, terms as a fact of expanding the scientific arsenal of modern librarianship are confirmed by consistent evidence.*

***Keywords:*** library, information, resource, library and information resource, document, source, paradigm

**Rəyçi:** t.ü.f.dok. dos. Z.T.Rzayeva